**“Azərbaycan” pavilyonunda “Moskva-Bakı: iki məhəbbət şəhəri” festivalı təşkil olunacaq**

**Fəridə Abdullayeva,**
AZƏRTAC-ın xüsusi müxbiri

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki “Azərbaycan” pavilyonunda Moskvanın “Şəhər günü”nə həsr olunmuş “Moskva-Bakı: iki məhəbbət şəhəri” festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, sentyabrın 10-11-də Xalq Təsərrüfatı Nailiyyətləri sərgisindəki “Azərbaycan” pavilyonu “MBA-Moskva” Bankı, “Sergey Andriyaka Akvarel və Zərif Sənətlər Akademiyası”, Restomarket by Vasilchuk Brothers ilə birlikdə XTNS-nin dörd aparıcı məkanında Rusiya paytaxtının bayramını qeyd edəcək.

Moskvalılar və paytaxt qonaqlarını Azərbaycan rəqsləri, Azərbaycan şah plovunun ənənəvi təqdimat şousu, Azərbaycan şirniyyatlarının bəzədilməsi üzrə ustad dərsləri, açıq havada qutab və Azərbaycan plovunun qazanda hazırlanması şousu gözləyir.

Tədbirin balaca qonaqları valideynləri ilə birlikdə “Sergey Andriyakanın Akvarel və Zərif Sənətlər Akademiyası”ndan ustad dərsləri keçə, nar şəklində keramika məmulatlarına naxış vurulmasında iştirak edə və dulus çarxında, Moskva və Bakıya həsr olunmuş viktorinada öz bacarıqlarını yoxlaya bilərlər.

“Moskvanın maketi” pavilyonunda qarşıdan gələn bayramın əsas tədbiri – “Mədəni körpülər: Rusiya – Azərbaycan” filminin təqdimatı keçiriləcək. Bu əsər Rusiya ilə Azərbaycan arasında dərin mədəni və tarixi əlaqələri nümayiş etdirir və yubiley münasibətilə şəhərə təntənəli ithafdır. Film Moskvanın mərkəzində görkəmli şəxsiyyətlər - Azərbaycandan olan mühacirlərlə bağlı olan tarixi yerlərə virtual səyahətdir.

Təşkil olunan mini-yarmarka çərçivəsində tam iki gün ərzində Azərbaycan və dağ yəhudiləri mətbəxindən ən yaxşı şirniyyat nümunələri ilə ənənəvi Azərbaycan çayını dadmaq, həmçinin Azərbaycan istehsalçılarının məhsullarını əldə etmək mümkün olacaq.

**AZƏRTAC**
**2022, 5 sentyabr**